# AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ İPƏKÇİLİYİN PƏRPASI VƏ ONUN YEM BAZASAININ YARADILMASI

**Mahir Hacıyev, Vəfa Məhərrəmova**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu, maharramovavefa0@gmail.com*

İpəkçiliyin işğaldan azad edilmiş ərazilərdə yenidən pərpası üçün yem bazasının yaradılması aktual məsələlərdən biridir. Bunun üçün müxtəlif tut bağlarının salınması vacib şərtlərdəndir. Hibrid tut tinglərindən istifadə edərək xətt tipli bağların salınması məqsədəuyğun hesab olunur.

Tut bitkisi təkcə baramaqurdunun yem mənbəyi kimi deyil, oduncağının rütubət saxlamaq, torpaq eroziyanın qarşısının almaq qabiliyyətinə görə sənayenin müxtəlif sahələrində istifadə edilir. Həmçinin dekorativ formalarının mövcudluğunu və meyvəsinin tərkibində zəngin qida maddələri olduğunu nəzərə alsaq, bu bitkini müxtəlif istiqamətlərdə istifadə etmək məqsədəuyğundur:

1. İpəkçiliyin yem bazası üçün tut bağlarının salınması - bu məqsədlə müxtəlif tipli əkin sxemindən istifadə edərək plantasiyalar salmaq.
2. Dekorativ Qızılı tut, Ağlayan tut, Piramidaşəkilli tut formalı tutlardan istifadə edilməsi.
3. Meyvəçilik istiqamətli sortlardan istifadə etməklə tut bağlarının salınması. Burada, Tehran tut, Şah tut, Ana tut, Xar tut, Bidanə tut sortlarından istifadə etmək olar.
4. Tut tingliyinin yaradılması - meyvəçilik istiqamətli və ipəkqurdu üçün tinglərin yetişdirilməsi.

Müxtəlif meyvəçilik istiqamətli tut sortlarının da bu ərazilərdə əkilməsi məqsədəuyğundur. Gələcəkdə meyvəçilik istiqamətli sortlardan istifadə edərək tut arağı, doşab, mürəbbə, kompot hazırlayan müəssisələr yaratmaq olar. Bu isə gələcəkdə yeni iş yerlərinin açılmasına şərait yaradar.